# LOVOL F4100
## Bağ traktoru




**F4100 modeli** - müasir kənd təsərrüfatının tələblərinə cavab verən, xüsusilə bağçılıq və meyvəçilik sahələri üçün nəzərdə tutulmuş güclü və çoxfunksiyalı traktordur. Kompakt quruluşu və yüksək manevr qabiliyyəti sayəsində dar cərgələrdə və intensiv bağ sahələrində rahat işləmə imkanı yaradır. Model, müxtəlif aqreqatlarla işləmək üçün geniş imkanlar təqdim edir. Ön və arxa VOM, hidravlik çıxışlar və qoşqu sistemləri sayəsində bir çox kənd təsərrüfatı işlərini effektiv şəkildə yerinə yetirir. Güclü mühərriki stabil performans və yanacaq səmərəliliyi təmin edir. F4100 həmçinin operator rahatlığı baxımından da üstünlüklərə malikdir. Rahat kabinə, yaxşı görünüş bucağı və erqonomik idarəetmə elementləri uzunmüddətli iş zamanı yorğunluğu minimuma endirir. Dayanıqlı konstruksiyası və keyfiyyətli komponentləri isə uzunömürlü və etibarlı istismar təmin edir.

LOVOL F4100







### Ön asqı sistemi

Ön qaldırıcı və ön asqı sistemi müxtəlif aqreqat və avadanlıqlarla işləmə imkanını genişləndirir. Bu xüsusiyyət traktoru çoxfunksiyalı edir və fərqli kənd təsərrüfatı işlərini daha çevik və səmərəli şəkildə yerinə yetirməyə şərait yaradır.

### Kompakt ölçülər və yüksək manevr qabiliyyəti

1440 mm ümumi eni ilə F4100 bağ və üzüm sahələrində rahat və çevik işləmək üçün ideal seçimdir. Dönmə radiusu dar məkanlarda belə maksimum manevr qabiliyyəti təmin edir, iş prosesini daha sürətli və effektiv edir.

### Yanacaq sistemi

İkiqat quruluşlu (əsas və əlavə) yanacaq çəni ümumilikdə 92 litr həcm təqdim edir. Bu həcm fasiləsiz işləmə imkanı yaradır, dayanma müddətlərini minimuma endirir və ümumi iş səmərəliliyini əhəmiyyətli dərəcədə artırır.

# TEXNİKİ GÖSTƏRİCİLƏR

| Model | F4100 | |
|---|---|---|
| İstehsalçı ölkə | ÇXR | / |
| Mühərrikin modeli | Xinchai | / |
| Mühərrik | 4 silindr | / |
| Mühərrikin həcmi | 3.5 | lt |
| Mühərrikin tipi | Dizel | / |
| Mühərrikin diskli valının fırlanma tezliyi | 2200 | dövr/dəq |
| Traktorun at gücü | 100 | at gücü |
| Yanacaq çəninin həcmi | 92 | lt |
| Sürətlər qutusunun növü | Mexaniki/sinxron ötürmə | / |
| Sürətlər qutusu | 16 irəli+16 geri | / |
| Sürət aralığı | 1.05-39.9 | km/s |
| Ön quyruq mili dövrlərinin sayı | 1000 | dövr/dəq |
| Arxa quyruq mili dövrlərinin sayı | 540/1000 | dövr/dəq |
| Ön təkər ölçüləri | 280/70R18 | / |
| Arxa təkər ölçüləri | 360/70R28 | / |
| Arxa hidravlik çıxışların sayı | 6 | ədəd |
| Ön qaldırıcı qolların yükqaldırma qabiliyyəti | 1020 | kq |
| Arxa qaldırıcı qolların yükqaldırma qabiliyyəti | 1530 | kq |
| Kondisioner | Mövcuddur | / |
| Traktorun uzunluğu | 4050 | mm |
| Traktorun eni | 1440 | mm |
| Traktorun hündürlüyü | 2560 | mm |
| Təkər bazası | 2250 | mm |
| Klirens | 270 | mm |
| Minimum dönmə radiusu | 3,55±0,3 | m |
| Arxa təkər yükləri | 172 | kq |
| Traktorun çəkisi | 3332 | kq |

PRIOR